Yeni Azərbaycan.- 2022.- 22 iyul.- S.8.



# Uşaqların şeir babası - Abdulla Şaiq

*M.BAYRAMLI*

Abdulla Şaiq əlinə qələm aldığı gündən ömrünün sonunadək yazdı. 60 il yazıb-yaratdığını oxucularına miras qoydu. Hər gün onu vərəq-vərəq, sözbəsöz xatırlayırıq. Uşaqlıq illərimizin ilk əzbəri, şeir sənəti ilə ilk tanışlığımızdır Abdulla Şaiq... 1881-ci il fevralın 24-də Tiflis şəhərində ruhani ailəsində anadan olub. İyulun 24-də isə onun xatirə gününü qeyd edəcəyik.

Mübaliğəsiz deyək ki, A.Şaiq olmasaydı, Azərbaycanda məktəb və maarif işi, uşaq ədəbiyyatı onun qızıl fonduna daxil olan əsərlərdən məhrum qalardı. Onun haqqında əbəs yerə deməyiblər "Abdulla Şaiq şair ikən də müəllim, müəllim ikən də şairdir... Şeirdə də, tərbiyədə də məqsədi gəncliyin mənəvi çırağını alışdırmaq idi. Şaiq öz şeirlərini ilk əvvəl dərsliklər üçün yazır, pyes və hekayələrini ən əvvəl tərbiyəvi-əxlaqi bir niyyət və qayə naminə qələmə alırdı".

XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsində ardıcıl və məqsədyönlü şəkildə çalışdı, öz fəaliyyəti ilə bu sahədə bir məktəb yaratdı. Eyni zamanda, "Əlifba" kitabı hazırladı, müxtəlif dərsliklər və dərs proqramları üzərində işlədi.

Uşağın ilkin olaraq ətraf aləmə, təbiətə, canlılara göstərdiyi diqqət və maraq şairin "Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə" və s. şeirlərində öz əksini həyatdan doğan romantik heyrətin poetik ifadəsi şəklində tapmışdı. Hər birimizin uşaqlıqdan əzbər bildiyimiz bu şeirlərdə heyrət və saflıq dolu məna və məzmun dərinliyi ifadə olunurdu. Uşaqlarda bədii zövqün cilalanması, onlarda təmizlik, səliqəlilik, əməksevərlik, elmə, təhsilə maraq və sevgi hissinin aşılanması məqsədi ilə çoxlu şeir yazmışdı. Bütün bu cəhətlərin böyük ustalıqla uşaq marağına uyğun ifadəsinin nəticəsidir ki, şeirləri uşaq poeziyamızın klassik nümunələri sırasına daxil olmuşdu.

"Tıq-tıq xanım", "Tülkü Həccə gedir", "Yaxşı arxa" mənzum nağıllarında, "Şələquyruq" adlı mənzum hekayəsində isə folklordan bəhrələnmə yolu ilə balaca oxucularına maraqlı əhvalatlardan bəhs edir. Özündən razılıq, hiyləgərlik və riyakarlıq, tamahkarlıq və ziyankarlıq kimi zərərli vərdişlərdən uzaq olub, ağıllı, sadə və səmimi, dostluqda həmrəy və sədaqətli olmaq kimi əxlaqi sifətlər aşılamağa çalışır.

**Atasının oğlu - Kamal Talıbzadə**

1921-ci ildə Şahzadə xanım Mirzəbəyova ilə ailə quran şair üç oğul, bir qız atası oldu. Övladlarından biri - Kamal Talıbzadə böyüyür, akademik adına layiq görülür. Kamal Talıbzadə atası haqqında böyük ehtiramla qələmə aldığı "Həmişə yadımda olan insan" xatirəsində belə yazır: "O, mənim xəyalımda, düşüncəmdə elə bil indi də canlıdır, elə bil o, mənimlə hər gün danışır, məsləhətləşir, yol göstərir, nəsihət verir... Atam məni tənqidə, ədəbiyyatşünaslığa sövq edən şəxsiyyət kimi əvəzsiz və unudulmazdır. Mənim ədəbiyyat aləminə, elminə gəlməyimlə maraqlananlar tez-tez belə sual verirlər - atamın bu prosesdə rolu olubmu, olubsa necə və nə dərəcədə olub? Mən həmişə onlara belə cavab vermişəm: "Müstəsna, həm də əsas rolu olub."

**Uşaqların şeir babası idi**

1959-cu il iyulun 24-ü vəfat edir. Fəxri Xiyabanda dəfn olunur. Uşaqlar, onun şeiri ilə böyüyən gənclər ilə əbədi vidalaşır. Buna baxmayaraq, yaradıcı irsi və şəxsi keyfiyyətinə olan rəğbət hər zaman onu yaşadır. 1974-cü il iyulun 26-dan Azərbaycan Dövlət Kukla Teatrı A.Şaiqin adını daşıyır. 1990-cı ildən Bakıda fəaliyyət göstərən Abdulla Şaiqin ev-muzeyi onun həyat və bədii yaradıcılığını işıqlandıran bir mədəniyyət ocağıdır.